**Lars Fr. H.Svendsen**

# Ümidin fəlsəfəsi

Norveç dilindən tərcümə edən:
Anar Rəhimov

qanun nəşriyyatı

Lars Fr. H.Svendsen

# Håpets filosofi

Ümid nədir? Biz niyə ümid etməliyik? Həyatda ümidsiz yaşamaq olarmı? Dahi filosoflar, mütəfəkkirlər bu qəribə, vacib, bizi idarə edən duyğu haqqında nələr deyib? Bütün bu sualların cavabını və daha artığını kitabı oxumaqla öyrənə bilərsiniz.

Həyat bizi çətinliklərə salır, olmazın problemlərlə qarşılaşdırır. Bu çətinliklərdən yalnız ümidin sayəsində qurtulmaq mümkündür.

Ümid sehrli çubuq deyil ki, bir dəfə toxunan kimi dərhal istədiyiniz həyata keçsin. Amma ümid bizi hərəkətə gətirə, motivasiya verə, düzgün istiqamətdə fəaliyyətə yönəldə bilər.

**Lars Fr. H.Svendsen** **HÅPETS FILOSOFI**
**Lars Fr. H.Svendsen** **ÜMİDİN FƏLSƏFƏSİ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 272 səh.

Janr: qeyri-bədii ədəbiyyat, fəlsəfə
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 29.08.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Norveç dilindən tərcümə edən: | Anar Rəhimov |
| Redaktor: | Cavid Zeynallı |
| Korrektorlar: | İradə İslamova |
| | Bəsti Məmmədova |
| Texniki redaktor: | Aydın Səlimli |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-577-38-9

© Qanun Nəşriyyatı, 2024
© Lars Fr. H. Svendsen
First published by Kagge Forlag AS, 2023
Published in agreement with Oslo Literary Agency

NORLA Norwegian Literature Abroad

"This translation has been published with the financial support of NORLA".

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

*Böyük və davamlı xarabalıq hissinin təsiri ilə biz ümidi yaratmaqda davam etdik.*

*Don DeLillo: – ( Ağ səs)(1985)*

# Giriş

Ümid insan həyatına nüfuz edib. Yaşayıb ümid etməyən bir insanı təsəvvür etmək çox çətindir. Ümidsiz sağ qalmaq mümkündür, amma yaxşı ömür yaşamırsan. İnsan həm də ümid edə bilən yeganə "heyvan"dır. Ümid yalnız insana xas olan bir çox xüsusiyyətlərdən biridir. Məsələn, ümid üçün əsas şərtlərdən biri dildir. Ümid bizim özümüzdən, tarixən bir çox filosofun güman etdiyindən daha mürəkkəb anlayışdır. Bu qədər təməl prinsip olduğu, fəaliyyətimizin hər sahəsini əhatə etdiyi üçün bəzən "yüz faiz mənimlədir" deyə düşünüb, onu nəzərdən qaçırırıq. Amma yaxından nəzər saldıqda bu anlayışın olduqca mürəkkəb olduğuna şahidlik edirik. Ümid qəfildən, havadan insan həyatına daxil olan məfhum deyil. Onu öyrənmək, inkişaf etdirmək lazımdır. Ümid haqqında çox vaxt hiss

kimi danışırlar, hə, sözsüz, bu məfhumun emosional tərəfləri də var, amma ümid hisslərlə bağlı olduğu qədər sağlam düşüncəyə da bağlıdır. Bu mənada ümidə nə rasional, nə də irrasional məfhum olaraq baxmaq olur. İnsan yaxşını da ümid edə bilər, pisi də. Ümid optimizm demək deyil. Adam eyni zamanda həm bədbin, həm də nikbin ola bilər. Sən pessimist ola bilərsən, amma ümidsiz tam olaraq insan həyatını heç bir halda yaşaya bilməzsən.

Mənim kitablarım həmişə motivasiyasını ümiddən alıb. Yazı prosesi xəritə çəkmək kimidir, adam anlaşılmaz bir şeyi insanlar başa düşəcək ümidi ilə formaya salır. Bəzən hər şey insanın ümid etdiyi kimi alınır, bəzən isə əksinə olur. Bu dəfə qarşıma qoyduğum məqsəd ümidi başa düşməkdir. Bu kitabı yazmağın vaxtıdır. Bəlkə də, bu kitabın toxumu mənim qorxu haqqında yazdığım son kitabımın axırlarında səpilmişdi. Həmin kitabın ilk nəşrinin son cümləsi belə idi: "Bəlkə də, bizim ehtiyacımız olan və mənim yazmalı olduğum kitab qorxunun fəlsəfəsi yox, ümidin fəlsəfəsi olmalı idi. Kitab çapa gedəndə həmin cümləni silmişdilər, amma mən 15 ilə yaxındır ki, Ümidin fəlsəfəsi haqqında kitab yazmaq düşüncəsindən daşınmamışdım".

Mövzunun mənim üçün yenidən aktuallaşmasına səbəb olan birbaşa amil Rusiyanın 2022-ci il, 24 fevralda başlayan Ukrayna işğalı oldu. Məni bu kiçik həcmli kitabı yazmağa ən çox motivasiya edən amil Ukrayna xalqının bu işğala verdiyi reaksiyadır. Şübhəsiz xalq arasında müxtəlif reaksiyalar vardı; kimi nifrət edir, kimi qorxur, kimi qəzəblənirdi. Amma hisslərin arasında ən güclüsü xalqın bu işğala sinə gəlməsi, ölkəsinin ərazi bütövlüyünü qoruması ilə bağlı olan ümid idi.

Eyni zamanda, Ukrayna ordusunun nəhəng rus ordusu önündə şanslarını nəzərə alanda, bu ümid mənə dəlilik kimi gəlirdi. Bu durum bir az da qədim yunan filosofu Tukyidin Afina camaatının Melosa qarşı təbliğatının təsvirini xatırladırdı. Orada da sadə xalq qüdrətli Afina ordusuna təslim olmaqdansa, kiçik şanslarına ümid bağlayıb mübarizə aparırlar. Xalq ədalətin onların tərəfində olduğuna, bu baxımdan Allahların doğru-düzgün dünya düzəni qurmaq üçün müdaxilə edəcəyinə, onlara kömək edəcəyinə ümid edirdilər. Allahların müdaxiləsinə olan ümid onları qüdrətli orduya qarşı müharibə aparmağa motivasiya edir. Bu durum afinalılara təsir etmir, onlar deyir ki, dar ayaqda ümid

bir təsəlli olsa da, insan gerçək vəziyyəti dəyərləndirib ancaq ümidin eşqinə özünü odaalova atırsa, bu, məhvedici olur. Afinalılar deyirdi ki, bu ümid düşmənləri xilas etməkdənsə, məhv edəcək. Afinalılar haqlı idi. Melosu uzun müddət mühasirədə saxlayandan sonra aşağıdakılar baş verdi: “Afinalılar kişilərin hamısını öldürdülər, tutduqları qadınları və uşaqları isə qul kimi satdılar”. Buradan nə dərs çıxır? Şüursuz şəkildə hər şeyi ümidə bağlamaq məğlubiyyətə və çöküşə gətirən irrasionallıqdan başqa bir şey deyil. Ümid heç də hər zaman müsbətlə nəticələnmir. Qələbəyə olan ümid isə çox aşağılayıcı məğlubiyyətlə nəticələnə bilər.

Melosluların məğlubiyyətinə gətirib çıxardan çatışmazlıq, ilk növbədə, onların səhv düşüncələri ilə bağlı deyil, problem onların gerçəkliyi dərketmə bacarığının olmamasındadır. Problem onların ümid etməsində yox, pis ümid etmələrindəidi. Ümid onların gələcək düşüncələri ilə bağlı birləşib onların əl-qolunu bağladı. Yəni onlar ümid edirdi ki, Allahların köməyi ilə bu qeyri-bərabər savaşdan qalib ayrılacaqlar. Əgər daha yaxşı ümid etsəydilər, bu zaman onlar daha yaxşı davranar və daha yaxşı uduzardılar. Özlərini tam məhvə sürükləməzdilər.

Heç şübhəsiz, Rusiya ordusunun Kiyev yaxınlığında dəf edilib geri atılmasında göstərilən şücaətin kökündə həm də ukraynalıların ümidi də rol oynayır. Ruslar Kiyevə girib Ukrayna hakimiyyətini marionet rus hökuməti ilə əvəzləmək istəyirdi. Qısa müddət üçün götürəndə Ukraynanın belə ümidi, əlbəttə ki, yaxşı ümid sayılırdı, ən azından ona görə ki, ölkənin belə dirənişi qərb ölkələrini onlar üçün hava-su kimi lazım olan silah tədarükünə motivasiyalandırdı. Uzun müddət üçün isə... Bircə onu deyə bilərəm ki, ümid edirəm, belə də davam edəcək. Ukrayna xalqının öz mübarizəsində qalib gəlməsi ilə bağlı gerçək ümid bizlərdən nələrsə tələb edir. Ukrayna ümidi xalqı mübarizəyə səfərbər edib – ümid isə hər şeyin insanın ümid etdiyi kimi yekunlaşacağına dair ehtimalı daha da yüksəldir. Əgər biz də həqiqətən ukraynalıların ümid etdiyinə ümid ediriksə, ümidimiz adi, quru sözlərdən daha artıq olmalıdır. Bizə nəyin bahasına başa gəlir-gəlsin, onlara öz mübarizələrində dəstək verməliyik. Ümid həm də adamın üzərinə məsuliyyət qoyur.

Şəxsən mən ümidi normal insan həyatının ən vacib halqası hesab edirəm. Ümid həyatımız üçün Allahın lütfü, yoxsa lənətidir? Bu hələ